# UNİVERSAL ELMİ KİTABXANALARDA TAMMƏTNLİ RƏQƏMSAL RESURSLARIN FORMALAŞDIRILMASI VƏ İDARƏ OLUNMASI

***Sevda Abasqulu qızı Xələfova***

*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*BDU İnformasiya və sənəd menecmenti fakültəsi*
*Akademik Zahid Xəlilov küç. 33*
*sqaflanova@mail.ru*

***Açar sözlər***: *universal elmi kitabxanalar, fond, sənəd, rəqəmsal resurs, formalaşma, idarə olunma*

***Ключевые слова:*** *универсальные научные библиотеки, фонд, документ, цифровой ресурс, формирование, управление*

***Keywords:*** *universal scientific libraries, collection, document, digital resource, formation, management*

**Xülasə:** Müasir dövrdə oxuculara elektron formada informasiya xidmətinin həyata keçirilməsində elektron sənəd-informasiya resurslarının rolu əvəzolunmazdır. Elektron kitabxanaların resurs potensialının əsasını təşkil edən tammətnli rəqəmsal resurslara kitablar, məqalələr, jurnallar, konfrans materialları, tədqiqat məruzələri və digər akademik və elmi məlumatların tam mətnləri aid edilir ki, bunlar da kitabxananın elektron kataloqunda rəqəmsal formatda mövcud olur və müxtəlif informasiya tələbatçılarına elektron şəkildə təqdim olunur. Məqalədə bu istiqamət üzrə kompleks şəkildə tədqiqat aparılmış, universal elmi kitabxanalarda tammətnli rəqəmsal resursların formalaşdırılması və idarə olunması sahəsində mövcud olan çatışmazlıqlar və onların optimal həll yolları göstərilmişdir.

**Резюме:** В современную эпоху электронные документально-информационные ресурсы играют незаменимую роль в предоставлении информационных услуг читателям в электронном формате. Полнотекстовые цифровые ресурсы, составляющие основу ресурсного потенциала электронных библиотек, включают книги, статьи, журналы, материалы конференций, научные доклады и другие академические и научные тексты. Эти ресурсы доступны в цифровом формате в электронном каталоге библиотеки и предоставляются пользователям в электронном виде. В статье проведено комплексное исследование в данном направлении, выявлены существующие недостатки в формировании и управлении полнотекстовыми цифровыми ресурсами в универсальных научных библиотеках и предложены оптимальные пути их решения.

**Summary:** In the modern era, electronic document and information resources play an irreplaceable role in providing information services to readers in electronic form. Full-text digital resources, which form the foundation of the resource potential of electronic libraries, include books, articles, journals, conference materials, research reports, and other academic and scientific texts. These are available in digital format in the library's electronic catalog and are presented electronically to various information seekers. This article conducts a comprehensive study in this direction, identifying the existing shortcomings in the formation and management of full-text digital resources in universal scientific libraries and offering optimal solutions to address them.

Kitabxana-informasiya müəssisələrinin rəqəmsal fondlarının fəaliyyəti bu gün həyat keyfiyyətinin yüksəlməsində və sosial münasibətlərin uyğunlaşmasında mühüm amil, dinamik sosial-iqtisadi inkişafın, vahid elektron informasiya və mədəni məkanın qorunmasının zəmanəti kimi tanınır. Müasir dövrdə respublikanın müxtəlif kitabxana-informasiya müəssisələrində rəqəmsal resursların yaradılması və oxuculara elektron formada xidmətin göstərilməsi diqqət mərkəzində olan əsas məsələlər-

dəndir. Universal elmi kitabxanalarda elektron resursların formalaşdırılması üçün ilk növbədə kitabxana fondunda olan ənənəvi resurslar rəqəmsal formaya çevirilməlidir. Rəqəmsal resursların səmərəli idarə olunması isə bilavasitə kitabxananın strukturunu təşkil edir. Bu idarəetmə sistemləri istifadəçilərə düzgün resursları təqdim etmək, axtarış imkanları yaratmaq və məlumatların saxlanmasını təmin etmək üçün əhəmiyyətlidir.

Kitabxanalarda elektron nəşrlərlə işin aparılması üçün konkret amillər müəyyənləşmişdir ki, həmin amillər aşağıdakılardır:

✓ Texniki imkanlar kitabxana serverlərinin tutumu və arxitekturası, onların proqram təminatı, yerli şəbəkənin mövcudluğu, yüksək sürətli internet və buna müvafiq olaraq rabitə kanallarının növləri (faks-modem, peyk, fiber-optik) ilə müəyyən edilir.

✓ Maliyyə xərclərinə aparat və proqram təminatının ödənilməsi, mühəndis və texnoloji dəstək, kitabxana işçilərinin təlimi, otaqların təchiz edilməsi və internet resurslarına çıxış üçün müəyyən olunan ödəniş daxildir.

✓ İdarəetmə proseslərində işçi amili yalnız fondun elektron hissəsi ilə işləmək üçün kompüter texnologiyalarının öyrənilməsini deyil, kitabxana işçilərinin bütün proseslərdə iştirakını nəzərdə tutur.

✓ Verilən informasiyanın keyfiyyəti və ümumilikdə elektron əlçatarlıq sənədlərlə işləməyin strateji məqsədi hesab edilə bilər.

Yalnız elektron sənədlərlə işləməyin bütün amillərini müəyyənləşdirdikdən sonra kitabxanada elektron nəşrlər fondunun formalaşması mümkün ola bilər.

Universal elmi kitabxananın istifadəçilərinin artan informasiya tələbatı kitabxana fondunun bütün növ nəşrlər tərəfindən bütövlüyünün təmin edilməsini, sorğunun vaxtında və tam şəkildə təmin edilməsini tələb edən informasiya ehtiyatlarının inkişafını, hər hansı bir növdə oxucuya lazımi məlumatların verilməsini və təşkilini nəzərdə tutur [5]. CD və onlayn nəşrlər ilə işləmək üçün yaranan vasitələr, fondların paylanması və oxuculara xidmət üçün mövcud ənənəvi texnologiyalar, texniki avadanlıqlar və bir sıra digər səbəblər fərqli ideologiyaların formalaşmasına təsir göstərir, tammətnli elektron nəşrlərlə işləmək üçün texnologiyaların optimallaşdırılmasını və onlar üçün effektiv idarəetmə sisteminin inkişaf etdirilməsini tələb edir.

Tammətnli elektron nəşrlər sisteminin universal elmi kitabxanalarda təşkili bu formada aparılır: nəşrin növü və tipi onun işlənmə üsullarını və həmin nəşrlərlə kitabxana xidmətinin aparılmasını müəyyənləşdirir. Nəşrin maddi daşıyıcısı, nəşrin formatı və istifadə olunan proqram təminatı, emal proseslərinə, texniki nəzarətə, saxlama və xidmət işinə təsir göstərir [1].

Təklif edilən bu üsullar tammətnli nəşrlərə birbaşa və sürətli çıxış təmin edir və kitabxana oxucularının tammətnli elektron nəşrlərdən istifadə marağını formalaşdırır.

Elektron nəşrlərin idarəetmə sistemi müəllif hüquqlarının qorunmasına da imkan vermiş olur. Belə ki, kitabxana fondunda mövcud olan ənənəvi nəşrlərin elektron formaya keçirilməsi və ya nəşriyyatlardan ənənəvi formada əldə edilən nəşrin yanında təqdim edilən elektron formaları əsasında yaradılan tammətnli elektron nəşrlər müəlliflərlə razılaşdırılaraq kitabxana xidməti müxtəlif formada həyata keçirilə bilər [2]. Elektron nəşrlərin idarəetmə sisteminin modelləşdirməsi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

✓ Sistemə bütün növ və tip tammətnli elektron nəşrlərin daxil edilməsi;

✓ Ənənəvi nəşrlərin elektron nəşrlərə keçirilməsi üçün əsas texnoloji prinsiplərin müəyyənləşdirilməsi;

✓ Əsas texnoloji proseslərin ayrıca modullara ayrılması;

✓ Çoxvariantlı əlçatarlığın təmin edilməsi;

✓ Tam mətnli elektron nəşrlərlə əlaqədar kitabxanaçılar, kitabxana və naşir, kitabxana və oxucu arasında yaranan obyekt-subyekt və subyekt-subyekt münasibətlərinin bütün mümkün variantlarının nəzərdən keçirilməsi.

Tammətnli nəşrlərin idarəedilməsi modelinin başlıca məqsədi ənənəvi kitabxanada elektron nəşrlərin effektiv hərəkət trayektoriyasını və istifadəsini təşkil etməkdir. Bu prinsiplər modelin əsas blok-sxemini qurmağa imkan verir [3]. Ümumiyyətlə, bu model üç alt sistemdən ibarət quruluş şəklində təqdim edilə bilər. Birinci altsistem tammətnli nəşrlərlə işləmək üçün ardıcıl bir proses kimi kitabxanadakı elektron nəşrin texnoloji yolunu və obyekt-subyekt münasibətlərini əks etdirir. Elektron nəşrlər fondunun idarə olunmasının təkmilləşdirilməsi üçün fondun "informasiya tələbatı - kitabxanaların informasiya ehtiyatları - istifadəçi məmnuniyyəti" kontekstində monitorinqini aparmaq lazımdır [4].

Universal elmi kitabxanalarda tammətnli rəqəmsal resursların formalaşdırılması və idarə olunması istiqaməti üzrə mövcud olan çatımazlıqlara misal olaraq, universal elmi kitabxanaların funksiyalarının həyata keçirilməsində onların imkanlarının müasir tələblər səviyyəsinə tam cavab verə bilməməsi və universal elmi kitabxanalarda tammətnli elektron nəşrlərlə xidmətin təşkili səviyyəsinin mükəmməl şəkildə öyrənilməməsini və universal elmi kitabxanalarda tammətnli elektron resursların idarə olunması istiqamətində müasir modelin işlənilməməsini aid edə bilərik.

Universal elmi kitabxanalarda tammətnli rəqəmsal resursların formalaşdırılması və idarə olunması istiqaməti üzrə mövcud olan çatışmazlıqların aradan qaldırılmasına aşağıdakıları aid edə bilərik.

✓ Universal Elmi Kitabxananın məqsədi müəyyənləşdirilməli və mövcud olma səbəbi dəqiqləşdirilməli: Kitabxananın məqsədinin müəyyənləşdirilməsi həm resursların idarə olunması prosesində mənbələrin öyrənilməsində, həm də bu mənbələrdən istifadəyə dair qərarlarda həlledici rol oynayacaqdır.

✓ Universal Elmi Kitabxananın resursları müəyyənləşdirilməli və təsnifləşdirilməli: Kitabxananın ehtiyatlarını yalnız kitab, jurnal və elektron materiallarla məhdudlaşdırmaq tamamilə səhvdir. Kitabxanadakı masalar, rəflər, kompüterlər kimi bütün elementlərdən əlavə park, bağçalar və binanın xaricindəki piyada keçidləri kimi digər elementlər də kitabxananın sahib olduğu bir qaynaqdır.

✓ Kitabxana informasiya resurslarından ən yaxşı şəkildə necə istifadə ediləcəyinə qərar verilməli: Resurslar müəyyənləşdirildikdən və təsnifləşdirildikdən sonra bu mənbələrdən ən düzgün və səmərəli şəkildə necə istifadə olunacağına qərar verilməlidir. Bu müddətdə məlumat mənbəyinin vəziyyətini təyin etmək üçün ətraflı komplektləşdirmə təhlili aparılmalıdır.

✓ Kitabxana informasiya resurslarının idarəçiliyi ilə bağlı normativ qaydalar ətraflı araşdırılmalıdır. Resursların idarə olunması prosesində bəzi bürokratik problemlər və maneələrlə qarşılaşmaq mümkündür. Hüquq və vəzifələri yaxşı bilmək bu kimi mənfi halları aradan qaldırmaqla yanaşı vaxta və istifadəçi məmnuniyyətinə qənaət edəcəkdir.

Müasir dövrdə bu istiqamətdə həyata keçirilən işlər istiqamətində universal elmi kitabxananın işçilərinin üçün mütəmadi olaraq ixtisasartırma kurslarına cəlb olunması daha məqsədəuyğun olar. Məqalədə qeyd edilən bütün təkliflər, ənənəvi və elektron resurslarla işin təşkili və idarə olunması sistemi sahəsində universal elmi kitabxanalar üçün mühüm amil rolunu oynayır. Burada əsas məsələ kitabxananın strategiyasını və hədəflərini düzgün qurmağı bacarmaqdır.

**Ədəbiyyat**


1. *Rzayeva, Z., Xələfova, S.* Elektron ehtiyatların saxlanılması və axtarışı: Dərs vəsaiti.- Bakı, 2022.-211 s.

2. *Xələfova, S. A.* Kitab fondu kitabxana sisteminin əsası kimi // Kitabşünaslıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi metodiki jurnal.-Bakı, 2022 №2, səh. 94-105.

3. *Xələfova, S.A., Əliyev, A.* Kitabxana fondlarının idarə edilməsi və inkişafı: Dərs vəsaiti.- Bakı, 2022.-260 s.

4. *İsmayilov, N.İ, Khalafova, S.A.* Historical Development of resource management in modern universal scientific libraries- Universidad y Sociedad Journal, -Cuba.- 2024, vol. 16 (4), pp. 509-515.

5. *Khalafova, S.A.* Library Sites that Provide Information to Users (Based on Domestic and Foreign Library Experience).- GRANI Journal, 2022, vol. 25, issue 2, pp. 22-28.